# Qafqaz albanlarının 2500 yaşlı varisləri

## Udilərin zəngin tarixi və mədəniyyəti saxta erməni təbliğatını ifşa edən əsas mənbələrdir

**(Əvvəli ötən saylarımızda).**

"Mən Avropa ölkələrində şahid olurdum ki, orada bizimlə bağlı mənfi informasiyalar da verilir. Azərbaycanın işğalçı olduğu, başqa xalqları assimilyasiyaya uğratdıqları barədə yalan rəy formalaşdırılır. Amma həmişə deyirəm ki, siz hansı əriməkdən danışırsınız? Mənim xalqımın 99 faizi öz dilində danışır, ana dilində dərs keçirlər. Biz necə əriyə bilərik?!"

"Bu münbit və zəngin mühiti Azərbaycan dövləti bizim üçün yaradıb" söyləyən icma sədri vurğulayır ki, Azərbaycan müstəqillik qazandıqdan sonra udilərin həyatında xeyli müsbət dəyişikliklər olub. Prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğı sayəsində 2003-cü ildə Qafqazın ən qədim kilsələrindən olan Şəki rayonundakı Kiş məbədi, 2006-cı ildə isə Qəbələ rayonunun Nic qəsəbəsində yerləşən 3 xristian məbədindən biri - Müqəddəs Yelisey adına Çotari kilsəsi bərpa edilib və icmanın istifadəsinə verilib. Azərbaycanlı rəssam-memar Şahvələd Məmmədov öz vəsaiti hesabına Nicdə 3 hektar ərazidə qədim alban din xadiminin həyət evini bərpa etməyə yardım göstərib və indi bura tarixi etnomədəni muzey - Azərbaycan Udi Ocağı kimi fəaliyyət göstərir. Udilər bütün bayramlarını, o cümlədən 20 iyulda keçirdikləri Udi Mədəniyyət Gününü lazımı səviyyədə qeyd edirlər.

Son 16 il ərzində Azərbaycan Prezidentinin Nic qəsəbəsinə 2 dəfə səfər etməsi isə dövlət tərəfindən icmaya göstərilən yüksək diqqət və qayğının bariz nümunəsidir.

**Xristianlığın ilk yayıldığı bölgələrdən biri...**

Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Məhəbbət Paşayeva məlumat verir ki, əvvəlki dövrlərdə alban tarixi, mədəniyyəti dərindən öyrənilməyib: "Təbii ki, bunun da öz səbəbləri var idi. Həm Çar Rusiyası, həm də sovet imperiyası bunun üçün əllərindən gələni edirdilər. O cümlədən sovet dövründə belə bir konsepsiya irəli sürülürdü ki, alban dövləti, etnosu, kilsələri ərəb işğalından sonra məhv olub. Alban dövləti ərəb işğalından sonra süqut etsə də, unutmayaq ki, islam dini digər dinlərə, xüsusilə də klassik dinlərə hörmətlə yanaşıb, alban xristian kilsəsinin biri də dağıdılmayıb. Bu kilsələr, eyni zamanda alban etnosunun son nəsilləri XIX əsrdə Rusiya imperiyasının gəlişinə qədər öz mövcudluğunu, etnik kimliyini hər zaman saxlayıb".

Məhəbbət Paşayeva qeyd edir ki, vaxtilə görkəmli alimlər Ziya Bünyadov, Fəridə Məmmədova, o cümlədən tarixçi İlyas Babayev alban irsini araşdırıblar. Bu gün də albanşünas alimlər alban etnomədəni irsinin qaranlıq qalmış səhifələrinin arxeoloji, tarixi, etnoqrafik cəhətdən araşdırılmasını davam etdirirlər: "Artıq hər kəs bilir ki, Qafqaz Albaniyası Azərbaycanın 2500 illik tarixini göstərən ənənələrə sahibdir. Hazırda dünya ölkələri də Qafqaz Albaniyası tarixinə böyük maraq göstərirlər. Çünki bura, xristianlığın ilk yayıldığı bölgələrdəndir. Tarixi kökləri Qüdsdən alan Alban Apostol kilsəsinin ənənələri və onun qədim Şərq kilsələri ilə əlaqələrinin üzə çıxarılması istiqamətində araşdırmalar aparılması nəticəsində Albaniyada xristianlığın həvvari - sirofil dövrü ilə bağlı mənbələr üzə çıxarıla bilər. Qədim Şərq kilsələrinin tarixinə aid kitablarda olan məlumatlar sayəsində biz də öz tariximizlə bağlı maraqlı və yeni faktlar əldə edə bilərik".

**Etnoqrafik xəzinələr muzeyi**

Təsadüfi deyil ki, Azərbaycanı etnoqrafik xəzinələr muzeyi adlandırırlar. Və hər zaman bu xəzinəyə sahib olmaq istəyən düşmənlərin sayı çox olub. Min illərdir bərabər yaşayan xalqlar arasında dini nifaq salınıb, bir-birinə düşmən olması istənilib. Unudulub ki, heç bir din, dil, milli fərq bu xalqların qarşılıqlı hörmət, ehtiramına zədə vura bilməz.

Bu xalqların birgəyaşayışının tarixi xristianlıq və islamdan, həmçinin bu gün Qafqaz alban irsinə sahiblənmək üçün özünə yalançı tarix quraşdırmaq iddiasında olan ermənilərin uydurmalarından da qədimdir. Özü də dünənə, birigünə, əsrlərə deyil, minilliklərə dayanan, zəngin və möhtəşəm tarix kimi...

**Yasəmən MUSAYEVA,**
*"Azərbaycan"*

# Qəbələ «İslam dünyasının turizm paytaxtı» seçilib



Azərbaycanın Qəbələ şəhəri 2020-ci il üçün "İslam dünyasının turizm paytaxtı" seçilib.

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Twitter səhifəsində yerləşdirilən məlumata görə, bu barədə qərar İƏT-ə üzv ölkələrin turizm nazirlərinin X konfransında qəbul olunub.

# IV Ptolemeyin sərdabəsi tapılıb

Misir arxeoloqları firon IV Ptolemeyin 2200 il yaşı olan və uzun müddətdir axtarılan sərdabəsini



tapıblar. Qədim sərdabə tikinti işçilərinin şimaldakı Sohag rayonunun Tama qəsəbəsində yerləşən Kom Şakav kəndində apardıqları qazıntı zamanı təsadüfən aşkar edilib.

Arxeoloqların həmin sərdabənin firon IV Ptolemeyə aid olması barədə rəyindən sonra ərazidə tikinti işləri dayandırılıb. Belə ki, alimlər burada Ptolemey sülaləsinin dördüncü fironunun təsviri və qədim Misir əlifbası ilə yazılmış mətn olan lövhələri aşkar ediblər. Lakin onlar hələ sərdabənin şimal-cənub divarlarını üzə çıxara bilməyiblər. Məbədin şərq-qərb divarlarının üzərində isə hər il Nil çayının daşması üçün dua edilən Hapi tanrısının quşların və çiçəklərin əhatəsində təsviri aşkar edilib.

IV Ptolemeyin eramızdan əvvəl 221-204-cü ildə Misir fironu olduğu ehtimal edilir. Onun hökmranlığı o qədər də uğurlu olmayıb və fironun dövləti idarə etməkdən daha çox, incəsənətə meyilli olduğu bildirilir. Tapılan qədim mətndə qeyd olunur ki, IV Ptolemeyin dövründə ən böyük gəmi inşa edilib. "Tessarakonteres" (qırx) adlanan bu gəminin 40 avar bölməsi və 4 min avarçəkəni olub.

# Yorğunluq sindromu

*Dinamik həyat tərzi, stress, ailə-məişət qayğıları insanlarda narahatlıq duyğusunu artırmaqdadır.*

*Aparılan araşdırmalar zamanı məlum olub ki, işdə daimi narahatlıq, sosial şəbəkələrdə aqressivlik gənc işçilər arasında sürətlə yayılır. Əvvəllər bu hala həkimlər "Burnout halı" deyirdilər.*

*Bu ilin may ayında Dünya Səhiyyə Təşkilatının "Burnout halı"nı tibbi vəziyyətdən sindroma dəyişdirməsi, sadəcə, bunun nə qədər ciddi olduğunu sübut etdi.*

*Hazırda psixoloqlar, sosioloqlar həyəcan təbili çalır. İnsanlara daha çox dincəlmək, təbiətlə başbaşa qalmaq, ailə və sevdiklərinə vaxt ayırmaq tövsiyə olunur. Sağlam həyat tərzinin dəbə çevrilməsi üçün müxtəlif proqramlar tətbiq edilir.*

# Rayonumuza səfər ediblər

Almaniyanın Drezden, Leypsiq və Berlin şəhərlərində yaşayan almanlardan ibarət on doqquz nəfərlik turist qrupu bu yaxınlarda Qəbələyə səfər ediblər.

Səfər çərçivəsində turistlər Qəbələ Arxeoloji Mərkəzinə baş çəkib və qazıntıların aparıldığı yerlərdə olublar.

Qəbələnin tarixi yerləri, milli təamları turistlərdə unudulmaz təəssüratlar buraxıb.

**"Qəbələ"**

# Qəbələ ilə Komrat qardaşlaşacaq

Azərbaycanın Qəbələ şəhəri ilə Moldovanın Komrat şəhərlərinin qardaşlaşması haqqında sazişin imzalanması planlaşdırılır.

Bu barədə "Pravda.Ru"ya müsahibəsində Azərbaycanın Moldovadakı səfiri Qüdsi Osmanov bildirib.

"Biz Moldova hökuməti, xarici işlər nazirliyi və respublikanın digər rəsmi qurumları ilə sıx əlaqədəyik. Qeyd etmək istəyirəm ki, münasibətlərimiz yüksək səviyyədə inkişaf edir. Gələn il ölkələrimizin paytaxtlarının qardaşlaşması barədə sazişin imzalanması da planlaşdırılır", - səfir deyib.

Səfir qeyd edib ki, 2020-ci ildə Azərbaycan-Moldova Hökumətlərarası Komissiyasının iclası keçirilməlidir və bunun nəticəsində bir sıra ticari-iqtisadi, mədəni sazişlərin imzalanması nəzərdə tutulur.

# Su ehtiyatları daha çoxdur

Astronomlar Yer kürəsinə bənzəyən və Günəş sistemindən kənarda yerləşən ekzoplanetlərdə həyat əlamətlərinin olması ilə



bağlı fərziyyələri araşdırırlar.

Alimlərin qənaətinə görə, Yerdən 2,5 dəfə böyük olan bu ekzoplanetləri "su dünyası" da adlandırmaq olar. Onların çəkisi bizim planetə nisbətən 10 dəfə artıqdır.

Digər tərəfdən, bu planetlərdəki su daha fərqlidir. "Ekzoplanetlərin səthində temperaturun 200-500 °C arasında olduğu güman edilir. Onlar su buxarından və aşağı qatlarda nazik maye təbəqəsindən ibarət atmosferlə əhatə olunub.

# Turistlərin ən çox getdiyi yerlər

Bir kvadratmil (2,59 kvadratkilometr) sahəyə düşən turistlərin sayının ən çox olduğu turizm istiqamətlərinin növbəti reytinqi dərc edilib.

AZƏRTAC xəbər verir ki, 2018-ci ilin yekunların görə lokasiya sahələri və turistlərin gündəlik sayı əsasında onların ən çox getdikləri 20 turizm istiqaməti "Columbus Direct" tədqiqat şirkətinin ekspertləri tərəfindən tərtib edilib.

İlk beşlikdə Asiyanın iki turizm istiqaməti və Avropanın üç şəhəri yer alıb. "Columbus Direct" reytinqinə əsasən 2018-ci ildə turistlərin ən sıx olduğu istiqamət Tailanddakı Phuket adasıdır. İl ərzində 9,29 milyon (yəni orta hesabla gündə 25452 nəfər) turist gələn bu kurort bütün başqa turizm istiqamətlərindən irəlidədir. Burada turistlərin sıxlıq göstəricisi bir kvadratmilə 5090 nəfərə bərabərdir.

İkinci yeri Palma-de-Mayorka (İspaniya, bir kvadratmilə 2918 turist), üçüncü yeri Pattayya (2762), dördüncü yeri Paris (1174), beşinci yeri Barselona tutur (605).

# Turistlər üçün təlimat kitabçası

Regionlarda turist qəbul edən kənd evləri sahiblərini müxtəlif mövzular üzrə məlumatlandırmaq və maarifləndirmək məqsədilə təlimat kitabçası hazırlanıb.

Kitabça Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin (BMZ) maliyyə dəstəyi ilə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) tərəfindən həyata keçirilən "Cənubi Qafqazda özəl sektorun inkişafı və peşə təhsili və təlimi" proqramı çərçivəsində ərsəyə gətirilib.

Təlimat kitabçasında kənd evində qonaqlama xidmətinin təşkili üçün tələblər və hüquqi əsaslar, qonaqların qarşılanması və yola salınması, qonaqların məmnunluğunun təmin edilməsi, qidalanmanın, əlavə xidmətlərin təşkili, kənd evinin tanıtımı, sanitar-gigiyena, təhlükəsizlik qaydaları, xərclər və qazancın hesablanması, hazırlıq və təsərrüfat işləri üzrə tövsiyələr öz əksini tapıb.